**Azərbaycan Respublikası**

**Siyəzən Rayon İcra Hakimiyyəti başçısının**

**S Ə R Ə N C A M I**

№ 116 29 oktyabr 2014-cü il

**23 dekabr 2014-cü il tarixində keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq Siyəzən rayonu ərazisində vətəndaşların sərbəst toplaşması üçün açıq və qapalı yerlərin müəyyən edilməsi haqqında**

Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş insan, vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsiplərinə, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.15.2-ci bəndinə, "Sərbəst toplaşmaq azdlığı haqqında" Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsinin 6-cı bəndinə uyğun olaraq 23 dekabr 2014-cü il tarixdə keçiriləcək bələdiyyə seçkilərilə əlaqədar Siyəzən rayonu ərazisində vətəndaşların sərbəst toplaşmaq hüququnun həyata keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram :**

1. 23 dekabr 2014-cü il tarixində keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun müvafiq maddəsinə uyğun olaraq Siyəzən rayonu üzrə müəyyən edilmiş açıq və qapalı yerlərin siyahısı təsdiq edilsin (Siyahı əlavə olunur).
2. Seçki kompaniyası ərəfəsində namizədliyi qeydə alınmış şəxslərin seçkiqabağı təşviqat materiallarının yerləşdirilməsi üçün nəzərdə tutulmuş lövhələrin seçki məntəqələrinə yaxın ərazidə yerləşdirilməsi təmin edilsin.
3. Bu sərəncamla təsdiq edilmiş "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq vətəndaşların sərbəst toplaşması üçün Siyəzən rayonu ərazisində müəyyən edilmiş açıq və qapalı yerlərin siyahısı rayonun "Çıraq" qəzetində dərc edilsin.
4. Sərəncamın icrasına nəzarəti öz üzərimə götürürəm.

**Siyəzən Rayon**
**İcra Hakimiyyətinin**
**başçısı**

**Arif Qasımov**

**Siyəzən Rayon İcra Hakimiyyəti**
**başçısının 29 oktyabr 2014-cü il tarixli 116 nömrəli**
**Sərəncamı ilə təsdiq edilmişdir**

**23 dekabr 2014-cü il tarixdə keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq vətəndaşların sərbəst toplaşması üçün Siyəzən rayonu ərazisində müəyyən edilmiş açıq və qapalı yerlərin**

**Siyahısı**

| № | Bələdiyyələrin adı | Bələdiyyələrin əhatə etdiyi yaşayış məntəqələri | Müəyyən edilmiş yerlər | |
|---|---|---|---|---|
| | | | açıq | qapalı |
| 1 | Siyəzən Bələdiyyəsi | Siyəzən şəhəri | Siyəzən şəhərində idman meydançası | "Siyəzənneft" Neft Qazçıxarma İdarəsinin akt zalı |
| 2 | Gilgilçay Bələdiyyəsi | Gilgilçay qəsəbəsi | Gilgilçay qəsəbəsində idman meydançası | Gilgilçay qəsəbəsində klub binası |
| 3 | Yenikənd Bələdiyyəsi | Yenikənd, Kolanı, Tuğay kəndləri | Yenikənd kəndində idman meydançası | Yenikənd kəndində klub binası |
| 4 | Həmyə Bələdiyyəsi | Böyük Həmyə, Balaca Həmyə kəndləri | Böyük Həmyə kəndində idman meydançası | Böyük Həmyə kəndində klub binası |
| 5 | Beşdam Bələdiyyəsi | Beşdam, Dərə Zarat, Nardaran, Siyəzən kəndləri | Beşdam kəndində idman meydançası | Beşdam kəndində klub binası |
| 6 | Zarat Bələdiyyəsi | Zarat, Cəndəhar, Qalaşıxı kəndləri | Zarat kəndində idman meydançası | Zarat kəndində klub binası |
| 7 | Eynibulaq Bələdiyyəsi | Eynibulaq kəndi | Eynibulaq kəndində idman meydançası | Eynibulaq kəndində klub binası |
| 8 | Sədan Bələdiyyəsi | Sədan, Çarxana, Müşkülqazma, Sağolcan kəndləri | Sədan kəndində idman meydançası | Sədan kəndində klub binası |

| | | | | |
|---|---|---|---|---|
| **9** | Məşrif Bələdiyyəsi | Məşrif, Daşlı Çalğan, Qalaaltı, Qərəh, Qozağacı, Orta Çalğan kəndləri | Məşrif kəndində idman meydançası | Məşrif kəndində klub binası |
| **10** | Dağ Quşçu Bələdiyyəsi | Dağ Quşçu, Əlməkolu kəndləri | Dağ Quşçu kəndində idman meydançası | Dağ Quşçu kəndində klub binası |
| **11** | Yuxarı Ələz Bələdiyyəsi | Yuxarı Ələz, Ərziküş, Hacışəkər, Köhnə Quşçu, Künövşə, Qaragöz, Yanıq Ələz kəndləri | Yuxarı Ələz kəndində idman meydançası | Yuxarı Ələz kəndində klub binası |